# Dastanlaşan ömür yolunun işıqlı adamı

*Tarixdə sağlığında ömrü dastana çevrilmiş insanlar çox olub. Böyük fəhmlə idrak edirik ki, 80 yaşını haqlamış, əsl ağsaqqal libaslı Ələşrəf Niftiyev də bu insanlardan biridir. Bugünlərdə «Elm və təhsil» nəşriyyatı həyatı ləyaqət və şərəf amili kimi səciyyələndirən Ələşrəf Niftiyevin - tarixin yaddaş salnaməsində böyük epoxa yaradan bu işıqlı şəxsiyyətin «Dastanlara dönəydi hər kəsin ömür yolu» adlı kitabını nəşr edib. Annotasiyadan da göründüyü kimi, kitab müəllifin sayca 15-ci kitabı, oxucu qəlbinin ən təfərrüatlı çırpıntılarından biridir. Kitabda müəllifin əsas ideoloji fikri ictimai rakurs kimi diqqət çəkir. Pedaqogika elmləri doktoru, professor Fərahim Sadıqov kitaba geniş həcmdə ön söz yazıb, Ələşrəf Niftiyevin dastana çevrilmiş ömür anını elmi-publisistik müsəvidə xarakterizə edib.*

Bu yazıda məqsədimiz kitabla bağlı hər hansı təfərrüatı elmi tədqiq etmək deyil, sadəcə burada maraq kəsb edən bir nüansa diqqət çəkmək istəyirik. Göründüyü kimi, kitab dörd bölmədən («Yaşam tərzimizə giriş - Müzəffər Qələbəmizin fonunda», «Təhsil, bilik, intellekt amilləri - intellekt insan», «Sağlamlıq həyatın rəhnidir» və «Mədəniyyət və insan təfəkkürü») ibarətdir. Hər bölmədə ictimai resurslar insan amili üçün çox səciyyəvidir. Müəllif cəmiyyəti qlobal təlatümlər qarşısında duruş gətirməyə müvəffəq edən sosial yaşam, təhsil, bilik, sağlamlıq və mədəniyyəti eyni (uyğun) tədqiqə cəlb etməklə, həm də fərqli nüanslara fikir ötürüb, insanın insanlaşma, bəşərolma faktlarını vacib amil kimi mənalandırıb.




Oxucunu da elə ən çox qane edən bu zəruri dinamikadır. Müəllifin (xüsusilə də) kitab boyu zərurət doğuran arqumentləri başlanğıc nöqtədən son nöqtəyə qədər eyni ardıcıllıqla izləyə bilməsi onun praktik bacarığına, vətəndaş qayəsinə əsaslanır.

Kitabdakı foto-şəkillər də məhz bu xarakteri açır.

«Dastanlara dönəydi hər kəsin ömür yolu» kitabı Ələşrəf Niftiyevin parlaq ömür salnaməsi, içində min illərin təlatümü çırpınan çoxxassəli ömür kitabıdır.

Allahdan müəllifə möhkəm can sağlığı arzu edirik.

✍ **Hikmət Məlikzadə**